# RESPUBLİKA ELMİ PEDAQOJİ KİTABXANASININ FƏALİYYƏTİNƏ YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ MƏRHƏLƏLƏRİ

*Aynur Xəlil qızı ƏLƏKBƏROVA(Cabbarova)*
*BDU, Bakı, Azərbaycan, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dissertantı, aynur-cabbarova@rambler.ru*

***Применение в деятельностьи республиканской научно-педагогической библиотеки новых инфомачионных технологоий по этапам***

***Резюме:*** *В современном информационном обществе, роль и важность, коммуникационных систем библиотеки настолько возросли, чтобез них потребности обществав информации не удовлетворить. В статье говорится в созданииин формационного общества Республиканская Научно-Педагогическая Библиотека в частности значимым является одно изпервых библиотек и применение в деятель ности библиотеки новых информационных технологий по этапам.*

***Application performance republican scientific pedagogical library new information technologies on stage***

***Abstract:****In today's information society, the role and importance of communication systems in the library increased so much, that without them society's need for information is not satisfied. In the article is said the creation of the information society Republican Scientific Pedagogical Library particularly significant is one of the first libraries and the use of the library in the new information technologies in stages.*

***Açar sözlər:*** *yeni informasiya texnologiyaları, kommunikasiya, metodik mərkəz, məlumat bazası, virtual dərslik kitabxanası*
***Ключевыеслова:*** *новые информационные технологии, коммуникация, методический центр, база данных, виртуальной библиотеки учебников*
***Keywords:****new information technologies, communication, methodical Center, database, virtual text book library*

**Giriş.**

İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləşdirilməsi bilavasitə kommunikasiya sistemləri, informasiyanın alınması, işlənməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan, kitabxanalar müasir cəmiyyətdə hər cür informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən-əsrə ötürən və informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan mühüm informasiya daşıyıcısı kimi fəaliyyət göstərir. Müasir informasiya cəmiyyətində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, onlarsız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial



institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 aprel 2007-ci il tarixində imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamı məhz kitabxana sahəsində mövcud olan geriliyi aradan qaldırmaq və bu sahənin inkişafını təmin etmək məqsədini daşıyırdı.

**Məsələnin qoyuluşu.**

Kitabxanalarda informatik texnologiyaların inteqrasyası olmadan müasir cəmiyyətin informasiyaya olan tələbatını ödəmək mümkün deyildir.Ona görə də informasiya xidmətində kitabxana–informasiya texnologiyalarından istifadə edilməli, bütün kitabxana–informasiya xidməti prosesi kompüterləşdirilməlidir. Respublika Elmi Pedaqoji Kitabxanası informasiyalaşdırılmış cəmiyyətin yaradılmasında xüsusi əhəmiyyətli olan ilk kitabxanalardan biridir. Bunu nəzərə alaraq zamanın tələbinə uyğun olaraq kitabxanada daxili ənənəvi texnologiyalar və kitabxanaların əhaliyə xidmət formalarının ciddi surətdə dəyişdirilməsi mərhələsinə başlanmış və bu sahədə əsaslı müvəffəqiyyətlərə nail olunmuşdu.

**Problemin təhlili:**

Hələ 2002-ci ildən başlayaraq kitabxana yeni inkişaf mərhələsinə qədəm qoymuş və informasiya texnologiyalarının tətbiqi sahəsində bir sıra uğurlar əldə etmişdir. Bu baxımdan 2002-ci il REPK-a üçün yeni informasiya texnologiyalarına inteqrasiya dövrü kimi xarakterikdir və mühüm dəyişikliklər ili hesab olunur. REPK-da struktur dəyişikliyi aparılmış, kitabxananın avtomatlaşdırılması və kompüterləşdirilməsi məqsədi ilə "Yeni İnformasiya Texnologiyaları şöbəsi" yaradılmışdır. "Yeni İnformasiya Texnologiyaları şöbəsi"nin yaradılması kitabxana sisteminin avtomatlaşdırılması kimi mürəkkəb və çətin işdə mühüm bir addım idi və kitabxananın müəllifi olduğu bir çox layihələr məhz bu şöbə tərəfindən həyata keçirilmişdir.

REPK-a "Ümumtəhsil, peşə məktəbləri və orta ixtisas təhsili müəssisələri kitabxanalarının vəziyyətini oyrənmək, işini əlaqələndirmək, informasiya texnologiyaları ilə təmin etmək üçün tövsiyyələr hazırlamaq məqsədilə "Elektron Bankın yaradılması" haqqında təkliflərini hazırlamış və Təhsil Nazirliyinə təqdim etmişdir. Elektron Bankın yaradılması üçün REPK-a öz daxili imkanları hesabına BORLAND DELPHİ (DELPHİ 7) proqramını əldə etmiş və bu proqram əsasında Təhsil Nazirliyi sistemində ilk dəfə olaraq Elektron**Məlumat bazası** *(Verilənlər bazası)* yaratmışdır. **Məlumat bazasının**(*Verilənlər bazası)* yaradılması demək olar ki, bir kompüter vasitəsilə həyata keçirilmişdir. REPK-nın metodistləri xüsusi anket formaları hazırlamış və Təhsil Nazirliyinin sirkulyar məktubu ilə respublikanın bütün ümumtəhsil məktəb kitabxanalarına göndərmişlər. Məktəb kitabxanalarının göndərdiyi hesabat formaları kitabxana tərəfindən analiz edilmiş, sistemləşdirilmiş və **Məlumat bazasına***(Verilənlər bazası)* daxil edilmişdir. Sorğuya uyğun olaraq hər bir məktəb kitabxanasının göstəriciləri ayrı-ayrılıqda bazaya daxil edilmişdir. REPK-nın hazırladığı **Məlumat bazası***(Verilənlər bazası)* əsasında respublikada təhsil sistemi kitabxanalarının fəaliyyəti, fondunun

miqdarı, maddi-texniki vəziyyəti və s. haqqında qısa zaman ərzində ətraflı məlumat almaq mümkündür.

REPK-a **Məlumat bazası** *(Verilənlər bazası)*əsasında zonalar üzrə "Təhsil Nazirliyi sistemində olan ümumtəhsil məktəbləri kitabxanalarının məlumat kitabı 2003" adlı 10 clddən ibarət məlumat kitabı hazırlayıb çap etdirmişdir.

Kitabxana əməkdaşları İFLA-nın (İnternationalFederation of LibraryAssociations - Kitabxana Assosiasiyaları Beynəlxalq Federasiyası) materialları əsasında üç dildə (ingilis, rus, azərbaycan) "Məktəb kitabxanaları haqqında manifest" (2003-cü il) hazırlamış və nəşr etdirmişdir.

"Elektron Məlumat" Bazasının 2013-cü ildən təkmilləşdirilməsi işinə başlamış, bu məqsədlə REPK-a yeni anket formaları hazırlamış və Təhsil Nazirliyinin sirkulyar məktubu ilə respublikanın bütünümumtəhsil, peşə məktəbi və orta ixtisas təhsili müəssisələrinin kitabxanalarına göndərmişdir.

"Elektron Məlumat" Bazası Microsoft Windows C# proqramlaşdırma dilində, Microsoft MSSQL proqram təminatı əsasında işlənilib təkmilləşdirilmiş və REPK-nın proqram təminatı hazırlanmışdır.

Əlavə olaraq 2013-cü ildə məktəb kitabxanaçıları üçün "Kitabların elmi və texniki cəhətdən işlənməsi" və ingilis dilində "Two-digitauthorstable" (İkirəqəmli müəllif cədvəli) hazırlanmış, kitabxana sahəsində dövlət tərəfindən qəbul edilmiş mövcud qanunlar əsasında tərtib edilmiş 41 səhifədən ibarət "Normativ hüquqi aktlar toplusu" nəşr edilmişdir.

Kitabxanalarda oxucu sorğularının dolğun ödənilməsində tətbiq olunan yeni xidmət formalarından biri də Elektron kataloqlardır. İlk olaraq REPK-da "İRBİS-64" proqram təminatının 2 modulu - AİY "Kataloqlaşdırma" və AİY "Komplektləşdirmə" üzrə iş aparılmağabaşlanılmışdır. REPK-a elektron kataloqunu 2004-cü ildən "İRBİS-64" proqram təminatının "Kataloqlaşdırma" modulu əsasında yaratmışdır. Elektron kataloqun yaradılması ilə əlaqədar kitabxananın fondu dünya kitabxanalarında tətbiq olunan və beynəlxalq miqyasda işlənilən Universal Onluq Təsnifat (UOT) cədvəli əsasında yenidən qurulmuşdur. Sistemdə bütün nümunəvi kitabxana texnologiyaları öz əksini tapmış, 3 növ biblioqrafik təsvir verilmişdir: monoqrafik, analitik və məlumat.O cümlədən, komplektləşdirmə, sistemləşdirmə, kataloqlaşdırma, oxucu axtarışı, kitab verilişi və administrator kimi iş yerləri də daxildir.

REPK-nın istifadə etdiyi digər bir modul "Komplektləşdirmə" moduludur."Komplektləşdirmə" modulunda ədəbiyyatın inventar nömrəsi, summar uçotu kitabının qeydləri, ədəbiyyatın fonda daxil olunmasının yekun məlumatları və s. iş prosesləri yerinə yetirilir.

Bu gün isə REPK-nın fondundakı həm retrospektiv həm də cari ədəbiyyat Elektron kataloqda öz təsvirini tapmaqdadır.

REPK-a Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "2008-2013-cü illərdə Azərbaycan Respublikasının kitabxana informasiya sahəsinin inkişafı və modernləşdirilməsi" Dövlət Proqramının hazırlanmasında iştirak etmiş və öz təkliflərini təqdim etmişdir. Eyni zamanda, REPK-a Dövlət Proqramının həyata



keçirilməsi ilə əlaqədar kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, təhsil sistemində çalışan kadrlara göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, təhsil işçilərinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsinə şərait yaradılması məqsədilə həyata keçirilən məktəb kitabxanalarında "Kitabxana siyasəti" sənədini hazırlamışdır.

Yeni nəslin, xüsusilə də gənclərin maariflənmək məqsədilə kiyabxanalara deyil, qlobal informasiya şəbəkələrinə müraciət etməsi, respublikamızda da virtual kitabxananın təşkilinə zərurət yaradırdı. Bunu nəzərə alaraq REPK "Virtual Dərslik Kitabxanası" layihəsini hazırlayıb Təhsil Nazirliyinə təqdim etmişdir. Layihənin məqsədi Azərbaycanda Elektron Təhsil məkanının genişlənməsi və gücləndirilməsinə, oxucuların işlərinin asanlaşdırılmasına, dərslik və metodik tədris vəsaitlərinin axtarışına vaxt sərfinin minimuma endirilməsinə yönəldilmişdir. Bunun üçün lazımi kitabların və metodik tədris materiallarının elektron kataloqunun yaradılması və bu tip ədəbiyyatın rəqəmsal formata salınaraq REPK-nın*veb* səhifəsində yaradılacaq və 24 saat *online* (aktiv) rejimdə fəaliyyət göstərəcək "Elektron Dərslik Kitabxanası" bölməsində yerləşdirilməsi nəzərdə tutulmuşdur. "Virtual Dərslik Kitabxanasının" iş prinsiplərindən biri də dərsliklərin, metodik vəsaitlərin, sinifdənxaric oxu və yardımçı dərs vəsaitlərinin elektron nəşrlərinin məlumat sisteminin yaradımasından ibarətdir. "Virtual Dərslik Kitabxanası" elektron kataloq, elektron dərsliklər, metodik tədris vəsaitləri, dərs proqramları və yardımçı audio-vizual materiallardan təşkil olunub, bu materillardan dərs prosesində, distansion təlim zamanı və dərsliklərin müstəqil öyrənilməsində effektiv istifadə olunması üçün nəzərdə tutulmuşdur.

Layihənin hazırlanmasında məqsəd Azərbaycan Elektron Təhsil məkanının genişlənməsi və gücləndirilməsinə xidmət etmək, həmçinin, milli dərsliklərin və dərs ədəbiyyatının vahid məkanının yaradılması və əks etdirilməsi, ayrı-ayrı müəlliflərin dilinin inteqrasiyası və dərsliklərin təkmilləşməsi dinamikasının tədqiqi, məntiqi yayım kateqoriyası ilə axtarışı təmin etməkdir.

**Nəticə.**

Hazırda REPK-a fondun bütövlükdə elektron informasiya daşıyıcılarına köçürülməsi, elektron kitabxananın və elektron kataloqun yaradılması proseslərini davam etdirir.

2009-cu ildə kitabxananın yeni saytı yaradılmışdır. Kitabxananın ilk saytı SOROS–Açıq Cəmiyyət İnstitutu tərəfindən hazırlanmışdır, lakin saytı hazırlayan şöbə bağlandığı üçün saytın fəaliyyəti də dayandırılmışdır. REPK-a 2009-cu ildə öz vəsaiti hesabına yeni saytın hazırlanmasını həyata keçirmişdir. Hazırda kitabxananın saytı www.repk.az. ünvanında yerləşir.

REPK-a məktəb kitabxanaçılarının yeni informasiya texnologiyalarına yiyələnməsi məqsədilə 2013-cü ildən başlayaraq məktəb kitabxanaçıları üçün "Yeni İnformasiya texnologiyalarının əsasları", "İnternetdən istifadə qaydaları" və "İRBİS-64 proqram təminatının tətbiqi qaydalarının öyrənilməsi", "REPK-nın

Məlumat bazasından (Verilənlər bazası) istifadə qaydalarının öyrədilməsi", "ACCESS proqramında Elektron kataloqun yaradılması və istifadəsi qaydaları haqqında məlumat" mövzusunda trninqlər təşkil edir.

Bütün bunlarla yanaşı REPK-a həmçinin məktəb kitabxanalarının işinin təhsil islahatları ilə əlaqələndirilməsinə, islahatların qarşıda qoyduğu vəzifələrlə əlaqədar məktəb kitabxanalarının işinin məzmununda baş verən yeni keyfiyyət dəyişikliklərinin ümumiləşdirilməsinə və yayılmasına böyük metodik köməklik göstərir.

Göründüyü kimi milli-mədəni irsinin qorunması, onların elektron informasiya daşıyıcılarına köçürülməsi və nəsillərdən nəsillərə çatdırılması, dünya informasiya sistemlərində məktəb kitabxana resurslarının təbliği və beynəlxalq informasiya mübadiləsinin həyata keçirilməsi sahəsində Respublika Elmi Pedaqoji Kitabxanasının gördüyü işlər təqdirəlayiq, rolu əvəzolunmazdır.

**Ədəbiyyat**


1. İsmayılov X. İ. Azərbaycan Respublikasında kitabxana işinin metodiktəminat sisteminin inkişaftarixi.- Bakı.: 2000.- 416 s.
2. İsmayilov X.İ. MKS-lərdə metodik təminat işinin təşkili xüsusiyyətləri....// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik vətəcrübi jurnal. - B.: Bakı Universiteti Nəşriyyatı, 2011.-№1.-137 s.
3. XələfovA. İnformasiya cəmiyyəti və kitabxanaşünaslığın müasir problemləri//Kitabxanaşünaslıq və informasiya.-B.: Bakı Universiteti nəşriyyati, 2010.- № 1.- S. 9-145.
4. Xələfov A. Müasir kitabxanaların sosial funksiyaları // Kitabxanaşünaslıq və Biblioqrafiya.-B.:1999.- №2.-S.3-48.
5. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya.- 2008.- №2, S.7-30.
6. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu// Kitabxanaşünaslıq və biblioqrafiya.- 1999.- №1.- S.3-17.
7. REPK-nın 1983-2014-cü illər hesabatları.
8. ZəngibasarlıM. və b. Respublika Elmi Pedaqoji Kitabxanası.- B.: 1997.- 98 s.
9. İkirəqəmli cədvəl: metodik vəsait/. Respublika Elmi Pedaqoji Kitabxanası; tərt. H.A. Musayev, F.Z. Abdinzadə; red. T.Ə.İsmixanova.-B.:1992.-25 s.
10. www.repk.az.saytı